Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 31 (22.942)

15 fevral 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də ABŞ Dövlət Departamentinin Enerji Ehtiyatları Bürosunun beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi vəzifəsini icra edən xanım Syu Saarnionun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev "Cənub Qaz Dəhlizi" layihəsinin həyata keçirilməsində ABŞ hökumətinin verdiyi dəstəyi yüksək qiymətləndirib. Dövlətimizin başçısı bu layihənin yaxın zamanlarda reallaşacağından məmnunluğunu ifadə edərək Məşvərət Şurasının sabah keçiriləcək iclasının görülən işlər və qarşıda duran planların müzakirəsi üçün yaxşı imkan yaratdığını vurğulayıb.

ABŞ Dövlət Departamentinin Enerji Ehtiyatları Bürosunun beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi vəzifəsini icra edən Syu Saarnio ABŞ Prezidentinin, Dövlət katibinin, ABŞ hökumətinin "Cənub Qaz Dəhlizi" layihəsinə dəstək verdiyini vurğulayıb və bu layihənin başa çatmaqda olmasının önəmini qeyd edib.

* * *

Prezident İlham Əliyev fevralın 14-də Böyük Britaniyanın Baş nazirinin ticarət elçisi xanım Baronessa Emma Nikolsonu qəbul edib.

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 6-cı bəndini rəhbər tutaraq muxtar respublikanın avtomobil yolları sahəsində idarəetməni daha da təkmilləşdirmək və həyata keçirilən işlərin səmərəliliyini artırmaq məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının "Naxavtoyol" Dövlət Şirkətinin əsasında Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyi yaradılsın.

2. "Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. "Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin strukturu" təsdiq edilsin (əlavə olunur).

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 14 fevral 2018-ci il

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 14 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyi haqqında ƏSASNAMƏ

1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyi (bundan sonra - Agentlik) Naxçıvan Muxtar Respublikasının avtomobil yolu təsərrüfatı sahəsində xidmət göstərilməsi, avtomobil yollarının (bundan sonra - avtomobil yolları), habelə körpülərin və digər yol qurğularının layihələndirilməsi, tikilməsi, istismarı, bərpası, təmiri, yenidən qurulması, avtomobil yollarının və yol qurğularının qorunub saxlanılması və onların vəziyyətinə nəzarət edilməsi, habelə avtomobil yolu infrastrukturunun inkişafı ilə bağlı digər işlərin kompleks şəkildə aparılmasının təmin edilməsi sahəsində (bundan sonra - müvafiq sahədə) fəaliyyəti həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentliyin müstəqil balansı, sərəncamında olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, müvafiq ştamp və blankı vardır.

1.5. Agentliyin saxlanma xərcləri və fəaliyyəti dövlət büdcəsi və qanunvericiliklə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Agentlik Naxçıvan şəhərində yerləşir.

2. Agentliyin fəaliyyət istiqamətləri

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahənin inkişafını təmin edir;

2.1.2. müvafiq sahədə dövlət siyasətinin formalaşmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;

2.1.3. müvafiq sahəyə aid proqnozlaşdırma və planlaşdırma işlərini təşkil edir;

2.1.4. avtomobil yolları şəbəkəsini inkişaf etdirir və yol qurğularının qorunub saxlanılmasını təmin edir;

2.1.5. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

3. Agentliyin vəzifələri

3.1. Agentlik bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. müvafiq sahə üzrə dövlət proqramlarının hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. yol təsərrüfatında vahid texniki, maliyyə, kredit və məqsədli investisiya siyasətinin əsaslarının işlənilib hazırlanmasında iştirak etmək;

3.1.3. müvafiq sahənin inkişaf etdirilməsinə dair təkliflər hazırlamaq və aidiyyəti dövlət orqanlarına təqdim etmək;

3.1.4. təsərrüfat fəaliyyətinin həyata keçirilməsi zamanı ekoloji təhlükəsizlik normalarının tələblərinə riayət edilməsini, habelə ekologiyanın və əhalinin sağlamlığının mühafizəsi tələblərinin yerinə yetirilməsini təmin etmək;

3.1.5. avtomobil yollarının torpaq sahəsində qoruyucu meşə zolaqlarının və digər yaşıllıq sahələrinin salınması, bərpası, mühafizəsi məqsədi ilə tədbirlər görmək;

3.1.6. avtomobil yollarının torpaq sahələrində inşa edilmiş qanunsuz tikili və qurğuların inşasının qarşısının alınması ilə bağlı şəhərsalma və tikinti qanunvericiliyinə uyğun tədbirlər görmək;

3.1.7. avtomobil yollarının qorunma (mühafizə) zolaqlarında xüsusi istifadə rejimini təmin etmək;

3.1.8. Agentliyin səfərbərlik və mülki müdafiə hazırlığını təmin etmək;

3.1.9. Agentliyə ayrılan büdcə vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.10. yol təsərrüfatının maddi-texniki bazasının gücləndirilməsi üzrə tədbirlər görmək, ondan səmərəli istifadə olunmasını təmin etmək;

3.1.11. fəaliyyət istiqamətlərinə uyğun, yol təsərrüfatı üçün zəruri olan xammalın və materialların istehsalını və satışını həyata keçirmək;

3.1.12. avtomobil yolları, habelə körpülər və digər yol qurğuları üzərindən müvafiq mühəndis kommunikasiyalarının çəkilməsinə razılıq vermək;

3.1.13. muxtar respublika və yerli əhəmiyyətli, habelə şəhər avtomobil yollarının siyahısında dəyişikliklər edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təkliflər vermək;

3.1.14. təbii fəlakət və fövqəladə hallar zamanı hərəkətin müvəqqəti məhdudlaşdırılmasına zərurət yaranmış avtomobil yolları barədə aidiyyəti dövlət qurumları qarşısında məsələ qaldırmaq;

3.1.15. təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədi ilə avtomobil yollarının və yol qurğularının bərpası üzrə işləri həyata keçirmək;

3.1.16. avtomobil yollarının, habelə körpülərin və digər yol qurğularının tikintisi, yenidən qurulması, təmiri və bərpası üzrə layihə və smeta sənədlərinin şəhərsalma və tikinti qanunvericiliyində nəzərdə tutulmuş qaydada ekspertizasının keçirilməsi üçün tədbirlər görmək;

3.1.17. avtomobil yollarının, habelə körpülərin və digər yol qurğularının layihələndirilməsi, tikilməsi, idarə olunması, saxlanılması, qorunması, cari, orta və əsaslı təmiri, yenidən qurulması işlərini yerinə yetirmək;

3.1.18. avtomobil yollarının, habelə körpülərin və digər yol qurğularının istismara qəbul edilməsi məqsədi ilə tədbirlər görmək;

3.1.19. qorunma (mühafizə) zolaqlarının hüdudlarının işarələnməsini həyata keçirmək;

3.1.20. yolkənarı xidmət obyektlərinin avtomobil yollarına birləşmələrinin tikilməsi, yenidən qurulması və təmiri işlərinin görülməsi üçün texniki şərtlər vermək və ona nəzarəti həyata keçirmək;

3.1.21. avtomobil yollarının, habelə körpülərin və digər yol qurğularının tikintisi və yenidən qurulması ilə əlaqədar layihələrin həyata keçirilməsi üçün layihəçi və podratçı təşkilatların seçilməsi məqsədi ilə keçirilən tenderlərdə (müsabiqələrdə) müvafiq qanunvericiliyə uyğun olaraq iştirak etmək;

3.1.22. avtomobil yollarının, habelə körpülərin və digər yol qurğularının tikintisi, bərpası, təmiri və yenidən qurulması ilə əlaqədar layihələrin həyata keçirilməsi zamanı texniki və müəllif nəzarətini həyata keçirmək;

3.1.23. körpülərin və digər yol qurğularının texniki sınağını keçirmək, habelə texniki sınağın keçirilməsi məqsədi ilə ixtisaslaşdırılmış müəssisələrin cəlb olunması üçün tədbirlər görmək;

3.1.24. avtomobil yollarının, körpülərin və digər yol qurğularının texniki pasportunu tərtib etmək;

3.1.25. avtomobil yollarında istifadə olunan materialların, cihazların və avadanlıqların uyğunluğunu qiymətləndirən qurumlardan sənədlərin alınmasını təşkil etmək;

3.1.26. Agentliyin işçilərinin sosial müdafiəsini, əmək şəraitinin yaxşılaşdırılması və əməyin mühafizəsi tədbirlərini həyata keçirmək;

3.1.27. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə baxmaq;

3.1.28. Agentliyin informasiya təminatını və onun təhlükəsizliyini təşkil etmək;

3.1.29. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.30. qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

4. Agentliyin hüquqları

4.1. Agentlik öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. müvafiq sahəni tənzimləyən hüquqi aktların layihələrini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;

Ardı 2-ci səhifədə

4.1.2. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq;

4.1.3. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

4.1.4. istifadəsində olan əmlak barəsində qanunla nəzərdə tutulmuş hüquqları həyata keçirmək;

4.1.5. yol infrastrukturunun inkişaf etdirilməsi məqsədi ilə bu sahədə qabaqcıl təcrübəni öyrənmək, qanunla müəyyən edilmiş qaydada xarici ölkələrin müvafiq qurumları və təşkilatları ilə əməkdaşlıq etmək;

4.1.6. işçilərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə ixtisasartırma və digər istiqamətlərdə təlimlər təşkil etmək;

4.1.7. dövlət və yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə öz fəaliyyət istiqamətlərinə aid məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan məlumatlar (sənədlər) almaq;

4.1.8. qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

5. Agentliyin fəaliyyətinin təşkili

5.1. Agentliyin fəaliyyətinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir. Direktor Agentliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.2. Agentliyin strukturu və işçilərinin say həddi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən müəyyən edilir.

5.3. Agentliyin direktorunun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır. Agentliyin direktorunun müavini Agentliyin direktoru tərəfindən ona həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Agentliyin direktoru:

5.4.1. Agentliyin fəaliyyətini təşkil edir;

5.4.2. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Agentliyin ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində xərclər smetasını, Agentliyin aparatının struktur bölmələrinin və strukturuna daxil olan qurumların əsasnamələrini təsdiq edir;

5.4.3. qanunvericiliyə uyğun olaraq icrası məcburi olan əmr və sərəncamlar verir, normativ hüquqi aktları təsdiq edir (imzalayır), onların icrasını təşkil edir və nəzarəti həyata keçirir;

5.4.4. Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.4.5. Agentliyi vəkalətnaməsiz təmsil edir;

5.4.6. Agentliyin işçilərini qanunvericiliyə müvafiq olaraq vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbeh tədbirlərini tətbiq edir;

5.4.7. Agentliyin fəaliyyəti barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə mütəmadi olaraq hesabatlar və məlumatlar verir;

5.4.8. Agentliyin maliyyə vəsaitləri və əmlakı barəsində sərəncam verir;

5.4.9. qanunvericiliyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

5.5. Agentlikdə Agentliyin direktorundan (kollegiyanın sədri), onun müavinindən, habelə Agentliyin digər rəhbər işçilərindən ibarət kollegiya yaradılır. Kollegiya üzvlərinin sayı və tərkibi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

5.6. Agentliyin kollegiyası öz iclaslarında Agentliyin fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və onlar haqqında müvafiq qərarlar qəbul edir. Kollegiyanın iclasları kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Kollegiyanın qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Agentliyin kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.7. Agentliyin kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda Agentliyin direktoru bu barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat verərək öz qərarını həyata keçirir. Kollegiyanın üzvləri şəxsi fikirlərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər.

5.8. Zəruri hallarda Kollegiyanın iclaslarında iştirak etmək üçün müzakirə olunan məsələlərlə bilavasitə əlaqəli olan icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların, qeyri-hökumət təşkilatlarının, habelə yol kompleksinin nümayəndələri dəvət edilə bilərlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 14 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin STRUKTURU

1. Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin Aparatı.
2. Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin yerli qurumları.

Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının yaranmasının 25 illiyi münasibətilə tədbir keçirilib

Rayon Mədəniyyət Evində keçirilən yubiley tədbirində Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov məruzə ilə çıxış edib. Bildirib ki, 1992-ci il noyabrın 21-də Naxçıvanda yaradılan Yeni Azərbaycan Partiyası qısa zamanda böyük siyasi hərəkat xarakteri aldı. O dövrdə partiyanın yerlərdə rayon təşkilatı və özəklərinin yaradılması prosesi gedirdi. Siyasi fəalları ilə seçilən Culfa rayonu da bu prosesdən kənarda qalmadı. 1993-cü il fevralın 7-də ulu öndərimiz Heydər Əliyevin iştirakı ilə rayon Mədəniyyət Evində Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının təsis konfransı oldu. Konfransda 25 ərazi ilk təşkilatından 450 nəfər nümayəndə iştirak etdi.

Təşkilatın sədri qarşıda duran vəzifələrdən danışarkən bildirib ki, 2018-ci il üçün Naxçıvan şəhəri İslam Mədəniyyətinin Paytaxtıdır, eyni zamanda bu qədim şəhər ölkəmizin Gənclər Paytaxtı seçilib. Bu il ümummilli liderimizin anadan olmasının 95, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100, Milli Qurtuluş Gününün 25 illik yubileyləri qeyd olunacaqdır. Həmçinin aprelin 11-də ölkəmizdə Prezident seçkiləri keçiriləcəkdir. Bu ayın 8-də Yeni Azərbaycan Partiyasının VI qurultayı keçirilib və qurultay nümayəndələri yekdilliklə partiyamızın sədri, ölkə Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə namizədliyini irəli sürüblər. Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı da partiyamızın namizədini yüksək səviyyədə dəstəkləyəcək, bundan sonra da rayonun ictimai-siyasi həyatında fəallıqla iştirak edəcəkdir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı Gənclər Birliyinin sədri Təbriz Hüseynzadə, təşkilatın Qadınlar Şurasının sədri Xanım Tağıyeva, təşkilatının şura üzvü, Əbrəqunus kənd tam orta məktəbinin direktoru Fikrət Quliyev çıxış edərək bildiriblər ki, Yeni Azərbaycan Partiyası üzvləri partiya ətrafında birləşməkdən qürur duyur, ölkənin tərəqqisi, iqtisadiyyatın yüksəldilməsi, təhsildə və mədəniyyətdə islahatların aparılması, xalqın rifahının yaxşılaşdırılması, milli-mənəvi dəyərlərimizin qorunması və təbliği sahəsində qarşıya qoyulmuş vəzifələrin öhdəsindən ləyaqətlə gəlməyə çalışırlar.

Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev çıxışında qeyd edib ki, 1992-ci il noyabr ayının 21-də ulu öndər Heydər Əliyevin rəhbərliyi və sədrliyi ilə Naxçıvanda təsis konfransı keçirilən Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycana vahid milli ideologiya gətirdi, xalqı bu ideologiya ətrafında birləşdirərək milli həmrəyliyə nail oldu. Yeni Azərbaycan Partiyasının yaradıcısı, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı olan ümummilli liderimiz ölkəmizin hərtərəfli inkişaf strategiyasını müəyyənləşdirdi. Həmin strategiya bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsində vətəndaşların sosial rifahı günü-gündən yüksəlib, sosial-iqtisadi inkişaf davamlı xarakter alıb, regionun lider dövlətinə çevrilən respublikamız beynəlxalq aləmdə böyük nüfuz qazanıb.

Vurğulanıb ki, bu gün ulu öndərin müəyyənləşdirdiyi inkişaf xətti muxtar respublikamızda da uğurla davam etdirilir. Bunun nəticəsidir ki, iqtisadiyyatın bütün sahələrində əldə edilmiş nailiyyətlərin miqyası ilbəil daha da genişlənir, regionun hərtərəfli inkişafı təmin olunur. Yeni infrastruktur sahələrinin yaradılması, tikinti-quruculuq, abadlıq işlərinin genişləndirilməsi, eləcə də əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikanın bütün bölgələri kimi Culfa rayonunu da əhatə edib. 2017-ci ilin sosial-iqtisadi inkişafının təhlili göstərir ki, rayonda iqtisadiyyatın bütün sahələri, o cümlədən təhsil, səhiyyə, mədəniyyət sahələri, rabitə və informasiya texnologiyaları, yolnəqliyyat, energetika sektoru sürətlə inkişaf edib. Rayon iqtisadiyyatının davamlı inkişafı, əhalinin həyat şəraitinin günü-gündən daha da yaxşılaşdırılması, şəhər və kəndlərimizin abadlaşdırılması, həmçinin yeni tikilən infrastruktur obyektlərində əlverişli iş şəraitinin yaradılması Yeni Azərbaycan Partiyasının təməlində duran prinsiplərin əməli surətdə həyata keçirilməsinin nəticəsidir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov tədbir iştirakçılarını təşkilatın yaranmasının 25 illiyi münasibətilə təbrik edərək deyib ki, keçən ilin noyabr ayında Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi geniş qeyd olundu. Naxçıvan Muxtar Respublikasının sakinləri üçün qürurvericidir ki, partiyanın yaranması və ilk addımları, təşəbbüslərinin ünvanı məhz doğma diyarımız olub. Bu baxımdan Yeni Azərbaycan Partiyasının Culfa Rayon Təşkilatının yaranma tarixi də bizim üçün əlamətdardır. Rayon təşkilatının təsis konfransında partiyanın banisi, ümummilli liderimiz, o zamanlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi fəaliyyət göstərən dahi Heydər Əliyevin şəxsən iştirakı, burada yeni dövr üçün söylədiyi proqram xarakterli nitqi hər birimizin fəaliyyəti üçün əvəzsiz proqramdır.

Anar İbrahimov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə ötən dövrdə genişmiqyaslı quruculuq tədbirləri həyata keçirilib. Bu quruculuq və modernləşmədən pay alan Culfa rayonu da qısa zamanda bütün sahələrdə inkişaf və tərəqqiyə qovuşub. Fərəhli haldır ki, Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının sıraları ildən-ilə genişlənir və partiya üzvləri bu quruculuq tədbirlərində fəal iştirak edir, ulu öndər Heydər Əliyev ideologiyasının həyata keçirilməsinə öz töhfələrini verirlər.

Sonda partiya üzvlüyünə yeni daxil olmuş bir qrup gəncə üzvlük vəsiqələri, partiya fəallarına hədiyyələr təqdim olunub, məktəblilər ulu öndərimizə, Yeni Azərbaycan Partiyasına, Vətənə həsr edilən şeirləri bədii qiraət ediblər.

Hüseyn ŞƏKƏRƏLİYEV

Yaz suvarma mövsümünə hazırlıq işləri görülür

Naxçıvan Muxtar Respublikasında 2018-ci ilin yaz suvarma mövsümünə hazırlıqla əlaqədar 16 kilometr kanal, 33 kilometr ara arxları, 3 kilometr kollektor lildən təmizlənmiş, suvarma boru xətləri təmir edilmişdir. Torpaq sahələrini sel sularının zərərli təsirindən qorumaq üçün Naxçıvançay vadisində 960 metr, Sirab selovunda 790 metr istiqamətləndirici bənd salınmışdır.

Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su təminatını yaxşılaşdırmaq məqsədilə yeni içməli su xətlərinin çəkilişi və mövcud içməli su xətlərinin təmir-bərpası 2018-ci ilin yanvar ayı ərzində davam etdirilmişdir. Suvarma və içməli su mənbəyi kimi istifadə olunan subartezian quyularının 3-də yeni nasos aqreqatı quraşdırılmış, 40 subartezian quyusu təmir olunmuşdur. Yanvar ayında Kəngərli rayonunun Şahtaxtı kəndində "Böyükgöl" kəhrizinin, Çalxanqala kəndində "Dərələyiz" kəhrizinin təmir-bərpası başa çatdırılmış, 7 kəhrizdə işlər davam etdirilmişdir.

"Rayon mərkəzləri və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Şahbuz şəhər çirkab sutəmizləyici qurğuda binaların dam örtüyü vurulmuş, hörgü və suvaq işləri aparılır. Babək rayonunun Şəkərabad kəndində müxtəlif diametrli borularla 2 kilometrə yaxın içməli su və 3 kilometr kanalizasiya xətti çəkilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti

Pensiya və müavinətlər vaxtında ödənilir

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu 2018-ci ilin yanvar ayı ərzində əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırmış, 10 milyon 838 min 991 manat pensiyaçıların şəxsi hesablarına köçürülmüşdür. Eyni zamanda məcburi dövlət sosial sığorta ödəmələri almaq hüququ olan şəxslərin də şəxsi hesablarına və ya poçt ünvanına müavinət ödənilməsi üçün 251 min 79 manat vəsait köçürülmüşdür.

Hesabat ayında fondun gəlirləri 4 milyon 41 min manat proqnoza qarşı 5 milyon 45 min 300 manat həcmində yerinə yetirilmiş və proqnoz tapşırıqlara 124,8 faiz əməl olunmuşdur. Pensiya və müavinətlərin ödənişinə ayrılan vəsaitin 5 milyon 45 min 300 manatı və ya 45,5 faizi məcburi dövlət sosial sığorta şəklində muxtar respublikada yığılmışdır. Hesabat ayında sığortaedənlərdən daxil olan 106 min 215 manat işsizlikdən sığortahaqqı işsizlikdən sığorta fondunun hesabına köçürülmüşdür.

2018-ci ilin yanvar ayında "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən pensiya hüququ yaranmış 147 vətəndaşa əmək pensiyası təyin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun kənd yerlərində yaşayan pensiyaçıların istəkləri nəzərə alınaraq pensiyaların yerli poçt bölmələri vasitəsilə ödənişinin həyata keçirilməsi barədə verdiyi tapşırıqların icrası üçün müvafiq tədbirlər görülmüşdür. Yanvar ayının 30-da Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları və "Naxçıvanpoçt" MMC-nin rayon filialları arasında müqavilə imzalanmışdır. Kənd yerlərində yaşayan pensiyaçıların müraciəti əsasında bundan sonra pensiyaların yerli poçt bölmələri tərəfindən də ödənişi həyata keçiriləcəkdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti

Yaşayış məntəqələrinə dayanıqlı təbii qaz verilir

"Naxçıvanqaz" İstehsalat Birliyində mütəmadi olaraq təbii qaz təchizatının etibarlılığının və səmərəliliyinin artırılması istiqamətində tədbirlər görülür. Yanvar ayında daxil olan müraciətlərə əsasən 144 mənzil və müxtəlif təyinatlı obyekt qazlaşdırılmışdır ki, bunun da 132-si əhali abonenti, 12-si isə qeyri-əhali abonenti olmuşdur.

Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smartkarttipli qaz sayğacları ilə əvəz olunması istiqamətində işlər davam etdirilmiş və 433 ədəd qaz sayğacı quraşdırılmışdır. Ötən ay qaz şəbəkəsində 1574 sızma aşkarlanaraq aradan qaldırılmışdır.

Naxçıvan Muxtar Respublikasında yanvar ayında yeni qaz boru xətlərinin quraşdırılması, yerinin dəyişdirilməsi, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar 14 min 367 paqonometr müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə olunmuşdur.

"Naxçıvanqaz" İstehsalat Birliyinin mətbuat xidməti

Azərbaycan Xalq Cümhuriyyəti – 100

Cümhuriyyət tarixi – istiqlaliyyətimizin sübhü

Bu il cümhuriyyətimizin 100 yaşı tamam olur. Bu böyük tarixi hadisəni qeyd etmək üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli Sərəncam imzalayıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov müvafiq Tədbirlər Planı təsdiq edib. Azərbaycan Xalq Cümhuriyyətinin keçdiyi tarixi yola bu yüzilliyin işığında nəzər salmaq məqsədilə Naxçıvan Dövlət Universitetinin elmi katibi, tarix üzrə fəlsəfə doktoru, dosent Elçin Zamanovla görüşüb söhbət etdik.

– Elçin müəllim, bu il tarixi-mizin şanlı səhifələrindən olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi dövlət səviyyəsində qeyd olunacaq. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması Azərbaycanın şərəf və ləyaqət səhifəsidir, milli kimliyimizin təsdiqidir. Azərbaycan Prezidenti cənab İlham Əliyev deyir: "Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, bizim xalqımız bu respublikanı yaradıb".

– Bəli, hər birimiz müsəlman Şərqində ilk demokratik cümhuriyyətin Azərbaycanda yaradılması ilə fəxr edirik, etməliyik də. 2018-ci ilin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizdə "Cümhuriyyət ili" elan olunması, cümhuriyyətin yaradılmasının 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncamı tarixi varisliyin bərpası, modern dövlətçilik dəyərlərinə, dünyəvi dövlət başçısı kimi liberal demokratik prinsiplərə ehtiramın və sədaqətin göstəricisidir. Möhtərəm Prezidentimizin bu sərəncamı tariximizin ən qiymətli və qürurverici mərhələsinə demokratik modern dünyanın diqqətini cəlb etməklə böyük inkişaf yolu keçmiş qərb dünyasının elmi-mədəni dairələrində xalqımız haqqında liberal demokratik və dünyəvi dəyərlərə bağlı bir millət kimi fikir formalaşdırmış olur. Eyni zamanda xarici araşdırmaçıların da diqqəti dünyəvi və müasir idarəçilik metodlarının ilk yaradıcısı kimi XX yüzilliyin başlanğıcından fəaliyyət göstərmiş azərbaycanlı maarifçi-demokratik düşüncəli ziyalı liderlərə yönəldilir.

"Onlar öz cəsarətli fəaliyyətləri ilə Azərbaycanda ilk müstəqil dövlətin qurulması üçün güclü addımlar atdılar. Xalqımıza müstəqillik ənənələri qoyub getdilər", – deyən ulu öndər Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini hər zaman yüksək dəyərləndirmiş, cümhuriyyət qurucularının adlarını hörmətlə xatırlamışdır.

– Bəli, ümummilli liderimiz Heydər Əliyev nəinki Azərbaycan Xalq Cümhuriyyətinin, xalqımızın çoxəsrlik tarixinin hər bir səhifəsinin hərtərəfli tədqiqi, tarixi hadisələrin məhz həqiqət prizmasından qiymətləndirilməsinin misilsiz əhəmiyyətini vurğulayaraq deyirdi: ***"Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır; tarixi təhrif də etmək olmaz, tariximizdəki qara ləkələri, qara səhifələri unutmaq da olmaz".***

Ulu öndər 1918-ci ilin mayına qədər Cənubi Qafqazda, o cümlədən Azərbaycanda baş verən siyasi hadisələrə qiymət verərək qeyd edirdi ki, Azərbaycan Xalq Cümhuriyyəti elan olunana qədər bu bölgədə mövcud vəziyyət son dərəcə mürəkkəb olmuşdur. Birinci Dünya müharibəsi və onun nəticələri bölgəyə ağır təsir göstərmişdir. Xüsusilə erməni-daşnak qüvvələrinin müsəlman əhalisinə qarşı törətdikləri qırğınlar ağır faciələr kimi yadda qalmışdır. Böyük şəxsiyyət Azərbaycan Xalq Cümhuriyyətinin qısa müddət ərzində fəaliyyətini yüksək qiymətləndirirdi: ***"Bu respublikanın yaranması və az müddətdə də olsa, yaşaması Azərbaycan xalqının dövlətçiliyinin bərpasında, Azərbaycanın dövlət müstəqilliyini əldə etmək yolunda, demokratik quruluş yaratmaq istiqamətində tarixi rol oynamışdır. Azərbaycan Xalq Cümhuriyyəti bir çox dəyərli işlər görmüş və Azərbaycanı bir müstəqil demokratik respublika kimi yaşatmağa çalışmışdır".***

Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş təntəli mərasimdə Heydər Əliyev 2 ilə qədər fəaliyyət göstərmiş milli hökumətin dövlətçilik tariximizdə tutduğu yerə xüsusi qiymət verərək deyirdi: ***"1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan xalqının həyatında tarixi hadisə olmuşdur və xalqımızın dövlətçilik salnaməsinin parlaq səhifələrindən biridir".***

– Elçin müəllim, tarixin bütün dönəmlərində düşmənə gözdağı olan Naxçıvanı Azərbaycan Xalq Cümhuriyyəti dövründə də Azərbaycandan qoparmaq qara qüvvələrin başlıca məqsədi olmuşdur. O zaman Naxçıvanda vəziyyət necə idi?

– Azərbaycanın Versal Sülh konfransında olan nümayəndələri də Ermənistan hökumətinin qədim Azərbaycan torpaqları olan Naxçıvan və Şərur-Dərələyəzi özünə birləşdirmək niyyətlərinə, daşnakların bu ərazilərdə törətdikləri zorakılıq aktlarına qarşı mübarizə aparırdılar. Bu barədə Əlimərdan bəy Topçubaşov avqust ayının 19-da Sülh konfransının sədrinə xüsusi etiraz notası təqdim etmişdi. Notada göstərilirdi ki, Azərbaycan nümayəndə heyəti respublikanın müstəqilliyini tanımaq barədə Sülh konfransı qarşısında çıxış edəcəyi günü səbirsizliklə gözlədiyi halda, bizim ölkəmizdə mühüm hadisələr baş verir, Sülh konfransının səlahiyyətinə aid olan məsələlərə müdaxilə edilir, Qafqaz Azərbaycanının ərazisi zor gücünə dəyişdirilir, əhalisi öz yurdlarından didərgin salınır. Beynəlxalq durumun belə ağır olmasına baxmayaraq, Türkiyə Azərbaycanın, xüsusilə də Naxçıvanın tarixi taleyinə biganə qalmadı. Naxçıvan öz coğrafi əhəmiyyətinə görə daim Türkiyənin xarici siyasətində önəmli yer tutmuşdur. Dörd ölkənin qovuşuğunda yerləşən Naxçıvan çox böyük strateji və siyasi əhəmiyyət kəsb etmişdir. Naxçıvan və Zəngəzurun strateji əhəmiyyətini nəzərə alan Qərb dövlətləri, ilk növbədə isə Böyük Britaniya və ABŞ həmin bölgələrdə nüfuza malik olmağa çalışırdılar. Ermənilər də bu böyük güclərin dəstəyinə arxalanaraq Naxçıvan və çevrəsini işğal etməyə can atırdılar. Ermənilərin bu iddiaları 1918-1920-ci illər arasında 70 mindən artıq naxçıvanlının soyqırıma məruz qalmasına və Azərbaycan diplomatlarının insanı heyrətləndirəcək miqyasda mübarizə estafetinə keçməsinə səbəb oldu. Naxçıvan uğrunda diplomatiyamız ağır mübarizə yolu keçdi və Məhəmməd xan Təkinski, Məmməd Yusif Cəfərov, Əbdürrəhim bəy Haqverdiyev, Fariz bəy Vəkilov və Teymur bəy Makinski kimi diplomatlarımızın adları tarixə əbədi həkk olundu.

– Bu dövrün xalqımızın qəlbində yara bağlayan ən faciəvi hadisəsi İrəvanın ermənilərə verilməsi oldu. Qədim oğuz-türk yurdu olan İrəvan nə üçün onlara verildi?

– O zaman Türkiyə ilə yenicə elan olunmuş Cənubi Qafqaz cümhuriyyətləri Batumda danışıqlara başlamışdılar. Azərbaycan liderləri Osmanlı hökumətindən real hərbi-siyasi dəstək almağa çalışırdılar. Batum konfransının gedişində "İttihad və Tərəqqi" hökumətinin üzləşdiyi ən qorxulu məsələ isə erməni məsələsi idi. Çünki Versal konfransı ərəfəsində yeni dünya nizamının qurucuları olan ABŞ prezidenti Vudro Vilson və Müttəfiq Dövlətlər daşnak Ermənistanına paytaxt kimi ərazi peşkəş etmək istəyirdilər. Yeri gəlmişkən, o dövrdə beynəlxalq siyasi münasibətlər müstəvisində Vilson qatı ermənipərəst kimi tanınırdı. Azərbaycan liderlərinə İrəvanı ermənilərə güzəştə getməkdə israrla təzyiq edildi. Baxın, belə çıxılmaz vəziyyətdə qalan Azərbaycan liderləri Bakının qurtuluşu üçün İrəvanı ermənilərə güzəştə getdilər.

– Cümhuriyyət dövründə ölkədə siyasi, iqtisadi və sosial böhran, həmçinin parlament daxilində hökm sürən hərc-mərclik, Qarabağda və Zəngəzurdakı erməni silahlı dəstələri ilə qarşıdurmaların gündən-günə dərinləşmə səbəbi nə idi?

– Beynəlxalq münasibətlərdə proseslər o qədər sürətlə cərəyan edirdi ki, beynəlxalq arenada gedən proseslərdən geri qalmaq müstəqilliyin itirilməsi ilə nəticələnə bilərdi. Buna görə də cümhuriyyət qurucuları çalışırdılar ki, Azərbaycanı nəyin bahasına olursa-olsun, beynəlxalq hüququn subyektinə çevirsinlər. Buna görə də Versala gedəcək Azərbaycan diplomatik heyətinin tərkibinə o dövrün Əlimərdan bəy Topçubaşov, Ceyhun bəy Hacıbəyli, Məhəmməd Həsən Hacınski, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə kimi məşhur ictimai-siyasi xadimləri salmışdılar. Yeri gəlmişkən qeyd edim ki, bu zaman yenicə təşkil olunmuş Azərbaycan parlamenti Avropanın ən demokratik parlamentlərindən biri idi. Bunu o dövrdə Cənubi Qafqazda olan ABŞ və ingilis hərbi nümayəndələri də etiraf edirdilər. Məsələn, 1919-cu il oktyabrın 2-də ABŞ-ın Transqafqazdakı hərbi komissarı Oliver Uordrop müttəfiqlərə yazdığı məktubda qeyd edirdi ki, Nəsib bəy Yusifbəylinin qurduğu hökumət kabinəsi indi bir çox Avropa dövlətlərinə nümunə ola bilər. Parlamentdə müzakirələr çox ağır siyasi ittihamlar və gərgin münasibətlər fonunda keçirdi. Təsəvvür edin, mart soyqırımını həyata keçirən, Azərbaycanda yüz mindən artıq türk-müsəlmanı soyqırıma məruz qoyan ermənilərin siyasi xadimlərinə parlamentdə 21 yer ayrılmışdı. Yeri gəlmişkən, bu yaxınlarda akademik Ramiz Mehdiyevin redaktəsi ilə nəşr olunan "ADR-İran diplomatik münasibətləri Qafqaz Fövqəladə Komissiyasının sənədləri işığında (1919-1920-ci illər)" adlı yeni arxiv sənədləri toplusu həmin dövrdə parlamentdə və ümumilikdə, siyasi partiyalar və təşkilatlar arasında olan kəskin ziddiyyətli münasibətləri aydın təsəvvür etmək baxımından çox dəyərlidir. Bu sənədlərlə tanış olduqca görürük ki, parlamentdəki əksər siyasi qüvvələr nəinki dövlətin möhkəmlənməsinə, hətta milli dövlətin yıxılmasına çalışırdılar.

– Elçin müəllim, bolşevik Rusiyası tərəfindən cümhuriyyət işğal olundu. Bilirik ki, xalq bunu heç də sakit qarşılamadı. Azərbaycanda üsyanlar baş verdi. 1920-ci illərdən başlayaraq ta sovet imperiyası dağılanadək xalqımız bu istiqlaliyyət ideyasını qoruyub saxladımı? Müstəqillik arzusu 70 il ərzində özünü büruzə verə bildimi?

– Təqib və repressiyalar elə 20-ci illərdən başlamış ta Stalinin ölümünədək davam etdi. Cümhuriyyət süqut edərkən Əlimərdan bəy Topçubaşov, Nağı bəy Şeyxzamanlı, Ceyhun bəy Hacıbəyli, Mirzəbala Məmmədzadə, Şəfi bəy Rüstəmbəyli və onlar kimi yüzlərlə cümhuriyyət fədaisi ömürlərini Vətən həsrəti ilə mühacirətdə başa vurdular. Millət anlayışını indiyədək izah, şərh etməyə çalışmış filosoflar, tarixçi və sosioloqlar hər zaman qeyd etmişlər ki, milləti ayaqda tutan, məhv olmağa qoymayan və hər zaman onu qurtuluşa səsləyən tarixi şüurdur. Zamanın müəyyən çalxantılı dövrlərində müxtəlif siyasi proseslər milli tarixi şüurun oyanmasına təsir edir və bu zaman millət öz tarixi şüuraltında müəyyən istiqlal ideyalarının təsiri ilə qurtuluşa can atır və məhz bu tarixi şüur milləti əsarət girdabında məhv olmağa, itib getməyə qoymur.

Əslində, Azərbaycanda 70-ci illərdən başlayaraq türk-müsəlman dünyasının ən böyük lideri Heydər Əliyev məhz həmin dövrlərdə Azərbaycanın tarixi istiqlal salnaməsi ilə tanış idi və bilirdi ki, gec-tez bu imperiya dağılacaq və milli bir dövlət qurmaq zərurəti ortaya çıxacaq. Məhz ona görə də ümummilli lider Azərbaycanda gələcək milli dövlətçiliyin prioritet istiqamətlərində özü möhtəşəm işlər görürdü. O, Azərbaycan gənclərinin davamlı olaraq Rusiyanın ali təhsil ocaqlarında təhsil almalarını təşkil edir və bilirdi ki, bu kadrlar gələcək milli dövlətin taleyini həll edəcəklər. İki ilə qədər fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyəti ilə 1991-ci ildə elan olunmuş müstəqil Azərbaycan Respublikası arasında əlaqəni yüksək qiymətləndirən Heydər Əliyev deyirdi: ***"Bu gün Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktından danışarkən mütləq qeyd etmək lazımdır ki, həmin müstəqillik aktı Azərbaycanın 1918-ci ildə mövcud olmuş Xalq Cümhuriyyətinin bərpasıdır. Biz onların varisiyik, onların işinin davamçılarıyıq – ancaq yeni şəraitdə, yeni bir tarixi zamanda".***

– XX yüzilliyin sonlarında sanki tarix çox oxşar beynəlxalq və daxili siyasi personajlarla təkrar olunurdu. Böyük rus sovet imperiyası dağılmış, milli dövlət quruculuğu uğrunda mübarizə başlanmış, eyni zamanda bütün xarici və daxili anti-Azərbaycan qüvvələrin fəaliyyətləri gücləndirilmişdi. Ermənilər yenə də o dövrdə olduğu kimi Qarabağ və Naxçıvanı işğal etmək üçün xarici himayəçilərinin dəstəyindən geninə-boluna yararlanırdılar. Ermənilər və ermənipərəst qüvvələr beynəlxalq ictimaiyyət arasında Azərbaycan əleyhinə güclü təbliğat aparırdılar. Belə bir vaxtda ümummilli lider Heydər Əliyev yenidən siyasi hakimiyyətə gəlməsəydi, ikinci dəfə qazandığımız müstəqilliyin taleyi də əvvəlki kimi olmayacaqdımı?

– Bəli, XX əsrin sonlarında da həmin hadisələr təkrar olunurdu. Ermənilər Qarabağı və Naxçıvanı Azərbaycandan qoparmağa çalışırdılar. Sovet imperiyasının dağıldığı dövrdə ciddi ictimai-siyasi proseslər başlamışdı. Ulu öndərimiz Heydər Əliyevin xalqın qəti iradəsi ilə Azərbaycana rəhbərliyə gəlməsi milli iflasın qarşısını aldı, çünki o zaman başsız qalmış, xaos vəziyyətində olan ölkəmizə əsl milli lider lazım idi. Əgər ulu öndər gəlməsəydi, Qarabağ və Naxçıvanın işğalından sonra Bakı Rusiyanın quberniyasına çevriləcək, ölkəmizin müxtəlif bölgələrində kiçik qurama muxtariyyətlər yaranacaqdı. Qafqazda Azərbaycan milli dövlətinin yaranmasına imkan verməmək üçün çox qorxulu planlar hazırlanmışdı. Dahi şəxsiyyət Naxçıvana gələndən sonra Vətənimizi xilas edəcək böyük bir missiyanı həyata keçirməyə başladı. Heç bir nizami hərbi qüvvəsi olmayan Naxçıvanın işğalının qarşısının alınması üçün təxirəsalınmaz tədbirlər həyata keçirdi, Türkiyə ilə siyasi-iqtisadi əlaqələri möhkəmləndirdi, Moskva və Qars müqavilələrini Türkiyənin siyasi gündəminə gətirdi, Naxçıvanın qurtuluşu, müvəqqəti iqtisadi təminatı üçün Türkiyədən yüz milyon manat əvəzsiz kredit aldı. Eyni zamanda ümummilli liderimiz tərəfindən muxtar respublikada milli dövlətçiliyimizin sütunları yaradıldı.

– Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd olunması ölkəmizdə Azərbaycançılıq təfəkküründə möhkəmləndirilməsinə və zənginləşdirilməsinə, həmçinin gələcək nəsillərin müstəqil dövlətçilik ideyaları əsasında tərbiyə edilməsinə xidmətin göstəricisidir.

– Cümhuriyyət tarixinin dərindən araşdırılması, televiziya və müxtəlif mətbuat orqanları vasitəsilə təbliği bundan sonrakı nəsillərin də Azərbaycançılıq təfəkküründə yetişdirilməsi üçün çox mühüm bir amildir. Çünki Əlimərdan bəy Topçubaşov, İsmayıl bəy Qaspıralı, Nəsib bəy Yusifbəyli kimi tarixi şəxsiyyətlər düzgün milli qurtuluş yolunu dünyəvi və türk-müsəlman dəyərlərinin sintezində görürdülər. Onların qoyub getdiyi mənəvi-siyasi irs bütöv nəsillərin dünyəvi və milli dəyərlər əsasında yetişməsi üçün əvəzsiz mənbədir. Məsələn, Əlimərdan bəy Topçubaşovun İstanbul və Parisdən Azərbaycan hökumətinə göndərdiyi məktublar hər zaman diplomatik müstəvidə araşdırmalar üçün ciddi mənbə olaraq qalacaq.

Onu da qeyd etmək yerinə düşərdi ki, ulu öndər Heydər Əliyevin siyasi irsi, xüsusən "Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında" adlı müraciəti Azərbaycan gəncliyinin milli dövlətçilik və daim yeniləşən dünyəvi-demokratik ruhda böyüməsində əsaslı rol oynayacaq.

– Elçin müəllim, bugünkü müstəqil Azərbaycan dövlətinin səlafi sayılan Azərbaycan Xalq Cümhuriyyətinin tarixi haqqında maraqlı müsahibə üçün sağ olun.

✍ **Mətanət MƏMMƏDOVA**

Müharibə veteranları hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar

Xalqımız tarix səhnəsinə neçə-neçə vətənpərvər, qəhrəman oğullar bəxş edib. Onlar ana Vətəni daim əziz tutub, gözlərini qırpmadan onun uğrunda canlarından keçməyə hazır olublar. Qədirbilən xalqımız hər zaman igid oğulları ilə fəxr edib, dövlətimiz isə onlara hərtərəfli diqqət göstərib. İgidlərimizin bir çoxu rəşadətli döyüş yolu keçərək veteran adı qazanıb. Bu insanlara böyük dəyəri isə məhz ulu öndər Heydər Əliyev verib. Azərbaycan xalqının ümummilli lideri onları yüksək qiymətləndirərək deyib: ***"Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğı və hörmətə layiqdirlər".***

Vətən uğrunda mərdlik göstərib qəhrəmanlıqla döyüşüb həlak olan, eləcə də həmin döyüşlərdə yaralanan insanların həyatı, keçdikləri döyüş yolu bu günün gəncləri üçün böyük örnəkdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə 2006-cı ildən fəaliyyətə başlayan Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatı bu qəbildən olan vətəndaşların bir araya gələrək təşkilatlanması və gənc nəslin vətənpərvər ruhda tərbiyə edilməsi işinin təşkili üçün mərkəz rolunu oynayır. Ötən günlərdə təşkilatın fəaliyyət göstərdiyi ünvana yollandıq, təşkilatın sədr müavini Zahid Cəfərovla həmsöhbət olduq. O bildirdi ki, təşkilat sıralarında birləşən 322 şəhid ailəsi, 374 müharibə əlili, 3 min 300 nəfər müharibə veteranı dövlət qayğısını daim üzərində hiss edir. Təşkilatın rayon şöbələrinin yaradılması bölgələrimizdə yaşayan şəhid ailələrinin, veteranların da keçirilən tədbirlərdə iştirakına imkan verir. Ötən dövr ərzində bu qəbildən olan insanlar mənzil və avtomobillərlə təmin edilib, müxtəlif sanatoriyalara müalicəyə göndəriliblər. Belə ki, həmin şəxslərə bu günədək 460 ədəd "Oka", "Tavriya", "Slavuta" və "NAZ-Lifan" markalı avtomobil təqdim olunub. Həmçinin muxtar respublikanın şəhər və rayonlarında yaşayan müharibə veteranları, şəhid ailələri və hərbi xidmət zamanı sağlamlığını qismən itirmiş vətəndaşlar 211 fərdi ev və mənzillə təmin ediliblər. Eləcə də Naxçıvan şəhərində yerləşən Əlillərin Bərpa Mərkəzində döyüşlər zamanı yaralanan insanların müayinə və müalicəsi də həyata keçirilir, onlar protez-ortopediya məmulatları ilə təmin olunur.

Yeri düşmüşkən biz də təşkilatın üzvü olan bir neçə müharibə veteranı ilə görüşüb söhbət etdik. Naxçıvan şəhər sakini, Sədərək döyüşlərində sağlamlığını itirən Əhəd Yusifov keçdiyi döyüş yolu barədə bunları dedi:

– 1992-ci ilin qanlı-qadalı günləri idi. Vətənpərvər oğullarımız könüllü olaraq cəbhəyə yollanır, torpağımıza mənfur düşmənin yaxın düşməsinə imkan vermirdilər. Mən də bir vətəndaş kimi Vətənin o dar günündə rahat otura bilməzdim. Elə onun üçün də öz istəyimlə qızğın döyüşlərin getdiyi Sədərək bölgəsinə yollandım. Düşmən güllələrinin ardıarası kəsilmir, mərmi yağışından göz açmaq olmurdu. Lakin bu, bizi qətiyyən qorxutmur, mübarizlik əzmimizi qıra bilmirdi. Çünki bilirdik ki, düşmənimiz qorxaq, ikiüzlü, riyakar, insanlıqdan uzaqdır. Bizə hədəflədiyi silah-sursatı da havadarlarından əldə ediblər. Şiddətli döyüşlər zamanı mənimlə bərabər çiyin-çiyinə vuruşan neçə-neçə mərd oğullar şəhid oldu. Döyüşlər zamanı yaralananlar da az deyildi. Mən də həmin xəsarət alanlar arasında idim. 1992-ci il noyabrın 20-də ayağım düşmən gülləsinə tuş gəldi. Döyüşü davam etdirmək niyyətimi bildirsəm də, komandirimiz bunun mümkünsüz olduğunu izah edib məni xəstəxanaya yolladı. O illərdən çox vaxt keçsə də, yenə də o dəhşətli günlər xatirimdən çıxmır. Bu gün müharibə veteranlarına böyük qayğı var. Mən də bu qayğıdan bəhrələnmişəm. Naxçıvan şəhəri, Babək məhəlləsi bina 14 ünvanında mənzillə, eləcə də "Oka" markalı avtomobillə təmin olunmuşam. Bundan əlavə, müalicə olunmağım üçün də hər cür imkanlar yaradılıb. Bizə göstərilən qayğıya görə dövlətimizə minnətdaram.

Digər müsahibim Heydər Həsənov da müharibədə şücaət göstərib, veteran adını daşıyanlardandır. O da dedi ki, tarix boyu xalqımızın mərd, vətənpərvər oğulları çox olub. 1992-ci ilin Sədərək döyüşlərində yaşananları, torpaqsevər gənclərimizin rəşadətli mübarizəsini söz ilə ifadə etmək çətindir. Ümumiyyətlə, qəhrəman insanlarımız dünən də var idi, bu gün də, sabah da olacaq. 2016-cı ilin aprel döyüşlərində mərd oğullarımız düşmənə layiq olduğu cavabı verdi. Nəticədə, bir çox strateji ərazilər geri qaytarıldı. Düşmən isə korpeşman halda geri çəkildi. Həmin döyüşlərdə şücaət göstərən, qəhrəmanlıq salnaməsi yazan eloğullarımız da az olmadı. Belə ki, Silahlı Qüvvələrimizin zabitləri – mayor Rasim Məmmədov, kapitan Toğrul Məmmədov və leytenant Qabil Orucəliyev bu döyüşlərdə əsl şücaət və rəşadət nümayiş etdirərək şəhidlik zirvəsinə ucaldılar. Şəhidlərin ailələrinə bu gün dövlətimiz tərəfindən böyük qayğı var, onların ailələri də bizim kimi hər cür şəraitə malik mənzillərlə təmin olunublar. Bütün bunlar dövlətimizin vətənpərvər insanlara, torpaq uğrunda vuruşanlara necə önəm verdiyini göstərir.

Yaqub Rzayev Qarabağ döyüşlərində iştirak edib, mətinlik göstərib veteran olduğuna görə özünü qürurlu hiss edir:

– Düşmənin hərbi təcavüzü nəticəsində alovlanan Qarabağ müharibəsi zamanı vətənpərvər oğullarımız Vətənin müdafiəsinə qalxdılar və bu müqəddəs amal uğrunda şəhid olanlar da az olmadı, yaralananlar da. Mən də həmin vaxt o od-alovlu müharibədə iştirak edirdim. Tale elə gətirdi ki, döyüş vaxtı ayağımı itirdim. O zamanlar silah-sursat, texnika cəhətdən indiki qədər güclü deyildik. İndi ordumuz tam müasir silahlarla, texnika və avadanlıqlarla təmin olunub. Ötən il oktyabrın 18-də – Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günündə Əlahiddə Ümumqoşun Ordunun nə qədər güclü olduğunu əyani surətdə görə bildik. Həmin gün Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü qeyd olundu, hərbi parad keçirildi. Paradda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasındakı Əlahiddə Ümumqoşun Ordusunun birləşmə və hissələrinin şəxsi heyəti, müasir hərbi texnika və silah sistemləri, o cümlədən döyüş vertolyotu və təyyarələri nümayiş etdirildi. Bunları görəndə ürəyim dağa döndü, işğal altında olan torpaqlarımızın tezliklə düşmən tapdağından azad ediləcəyinə böyük inam hissi yarandı. İndi əminliklə deyə bilərik ki, güclü ordumuz çox keçmədən doğma torpaqlarımızı geri qaytaracaq.

Fərman İsmayılov da keçmiş döyüşçülərimizdəndir. O, 1993-cü ildə Ağdam şəhəri uğrunda gedən döyüşlərdə sağlamlığını itirib. Dedi ki, döyüşlərdə göstərdiyi şücaət sayəsində bu gün cəmiyyət arasında ona böyük hörmət göstərilir. Elə dövlətimiz tərəfindən də yüksək qayğıyla əhatələnib, ona da digər müharibə iştirakçıları kimi ev və avtomobil hədiyyə olunub. İstirahəti də çox yaxşı təmin olunur. Asudə vaxtını səmərəli keçirmək üçün vaxtaşırı Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin 2 nömrəli Təqaüdçülər Klubuna üz tutur. Muxtar respublika rəhbərinin diqqət və qayğısı nəticəsində ötən il klubun yeni binasının tikilərək istifadəyə verilməsini onlara verilən dəyərin daha bir ifadəsi kimi qiymətləndirən müsahibim bu məkanın üstünlüklərindən də danışdı. Dedi ki, burada yaradılan imkanlar sayəsində həm dost-tanışla söhbət edir, dama oyunu oynayır, həm də mütaliə ilə məşğul olur. Bir sözlə, dövlətimiz tərəfindən yaradılan imkanlar bütün müharibə iştirakçıları kimi onun da ürəyincədir.

Yaşlı nəslin nümayəndələri, xüsusilə də müharibə dövrünü yaşamış, ağrılı-acılı günlərin şahidləri olan bu vətənpərvərlərlə söhbət insana, sözün həqiqi mənasında, böyük əhval-ruhiyyə bəxş edir. Onlar müstəqil Azərbaycanın yaranmasında, güc və qüdrət qazanmasında öz canlarını və qanlarını əsirgəməyiblər. Bu gün hər bir Azərbaycan gənci dövlətimizin veteranlara göstərdiyi diqqət və qayğıdan ruhlanaraq istər hərbi xidmət zamanı, istərsə də ondan sonrakı dövrdə döyüşməyə, işğal altında olan torpaqların azad olunmasında iştirak etməyə hazırdır.

✍ **Nail ƏSGƏROV**

Dəyirmi masa təşkil edilib

Fevralın 14-də Naxçıvan Dövlət Tarix Muzeyində "Muzey fondlarına daxil olan eksponatların bazasının yaradılması işinin təşkili və qarşıya çıxan çətinliklər" mövzusunda dəyirmi masa təşkil olunub.

Tədbiri Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Qumral Əsədova açaraq bildirib ki, muxtar respublikamızda muzeylərin fəaliyyətinin canlandırılması, yeni muzeylərin yaradılması sahəsində mühüm işlər görülür, bu mədəniyyət ocaqları müasir tələblər səviyyəsində qurulur. Qədim diyarımızda muzeylərin fəaliyyətinin günün tələbləri səviyyəsində qurulması və muzey şəbəkələrinin genişləndirilməsi sahəsində işlər 2017-ci ildə də davam etdirilib. Ötən il muzeyləri 110 min 425-i əcnəbi olmaqla, ümumilikdə, 445 min 747 tamaşaçı ziyarət edib. Bu ilin ilk ayında isə muzeylərdə 5 min 359 nəfəri əcnəbi vətəndaş olmaqla, 24 min 434 nəfər tamaşaçı olub.

Bildirilib ki, muzeylərdə açıq dərslərin, seminar-treninqlərin təşkili də müntəzəm xarakter alıb. Muzey fondlarının zənginləşdirilməsi sahəsində görülən işlər öz bəhrəsini verir. Belə ki, ötən il muzeylərimizə 1340 yeni eksponat daxil olub. Bu ilin yanvar ayında isə bu mədəniyyət müəssisələrinə 130 eksponat verilib.

Sonra Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Rəhimov, Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev, "Xan Sarayı" Dövlət-Tarix Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Nəzakət Əsədova və digərləri çıxış ediblər. Çıxışlarda muzeyə daxil olan eksponatların qəbulu və təhvil qaydaları, yeni daxil olmuş eksponatların elektron bazasının yaradılması işinin təşkili və qeydiyyatı, fondların və elektron bazanın uçotu, uçot nişanları, köməkçi uçot formaları, elektron bazanın yaradılmasının əhəmiyyəti, bu işdə qarşıya çıxan çətinliklər, muzey işində olan yeniliklərdən geniş söhbət açılıb.

Sonda muzeyin ekspozisiyasına baxış olub.

Əli RZAYEV

İnanclarımız

Üzərliksən havasan, min bir dərdə davasan

Üzərlik... Bizim mifik inanclarımızın həqiqi təcəssümü... Azərbaycan mifologiyasında, inanclarında və elə indiki məişətində də üzərlik digər bitkilərdən bədnəzərdən qorumaq xüsusiyyətinə görə seçilir. Yəqin ki, çoxlarınız əksər evlərdə ona rast gəlmisiniz. Bəlkə, öz evinizdə də var. Qonşuluğumuzda yaşlı bir qadın var idi, Tutu nənə. Bu qadın üzərlikdən ev üçün müxtəlif asılqanlı bəzəklər düzəldib satırdı. O vaxt qonşularımızın haması Tutu nənədən həmin əşyaları alıb evinə asırdı. Hətta bizim evdə o, hələ də qalır. Özü də illərdir, olduğu yerdə. Evin qapısından içəri keçən kimi ilk olaraq gözüm ona sataşır.

Qara qüvvələri qovmaq və evdəki insanları bədnəzərdən qorumaq məqsədilə ondan hərə bir cür istifadə edir. Kimisi, qeyd etdiyim kimi, evində saxlayır, kimisi də vaxtaşırı yandırıb tüstüsünü ətrafına, evinə yayır. Deməli, üzərliyin yumru, yəni toxumlu hissələri qırılır, bir qədər sarımsaq və duz götürülür. Sağ əldə üzərliyin toxumları, sarımsaq qabığı və duz ailə üzvlərinin hər birinin başı üzərində tutularaq üç dəfə fırladılır və belə deyilir: "Kimin nəzərinə gəlmişik, onun nəzərini yandırırıq". Daha sonra qazda və ya ocaqda qızdırılmış dəmir parçasının üzərinə atılaraq yandırılır. Hətta çox vaxt ocaqda yanan və qızaran üzərlik toxumları haqqında deyirlər ki, bunlar yanan gözlərdi. Üzərliyi yandıranda kimi bədnəzərdən qorumaq istəyirlərsə, o adam üzərliyi iyləməlidir.

Əgər evi bədnəzərdən qoruyurlarsa, bu halda yanan üzərliyi evin hər yerində, xüsusilə də künclərində gəzdirir və deyirlər:

Üzərliyim tüstülən
Bədnəzəri kor elə.
Qohum olsun, ya özgə,
Qoy qapıdan girməsin.

Uşağı bədnəzərdən qorumaq üçün üzərlik yandırıb deyirlər:

Göstər hökmünü, üzərlik.
Bir, iki, üç, dörd,
Çırtlasın, pırtlasın,
Yaman gözlər pırtlasın.

Qədim inanclara görə, bu otun tüstüsü evləri qara qüvvələrdən təmizləyir. Bundan əlavə, yeni doğulmuş uşaq olan evdə də bu bitkinin toxumları mütləq yandırılırdı. Bununla bizim qədim əcdadlarımız uşağı həm qara qüvvələrdən, həm də infeksiyalardan qoruyurdular. Elmi şəkildə sübut edilib ki, əslində, üzərliyin tüstüsü mikrob və infeksiyalara öldürücü təsir edir, evin havasını çox yaxşı təmizləyir. Evdə qrip və ya soyuqdəymə xəstəsi varsa, evin havasını mikrob və infeksiyalardan təmizləmək məqsədilə üzərlik yandırmaq məsləhət görülür.

Üzərlik çoxillik bitkidir. O, Naxçıvanda, demək olar ki, bütün bölgələrimizdə bitir. Ən maraqlı xüsusiyyəti, əsasən, qəbiristanlıq ərazilərində yayılmasıdı. İnternetdə rastlaşdığım bir məqalədə belə qeyd olunur ki, hətta üzərliyin rus dilində adlarından biri də "moqilnik"dir. Bu da tərcümədə "köhnə qəbiristanlıq" deməkdir. Yunan dilində isə üzərliyin adı "kömək etmək, xilas etmək" kimi tərcümə olunur.

Üzərliyi evlərin qapılarından, dükanların girəcəyindən asırlar ki, burada da məqsəd yenə bədnəzərdən qorunmaqdır. Toy məclislərində yandırıb məclis iştirakçılarının arası ilə gəzdirirlər. Maraqlıdır ki, İslam ilahiyyatçılarının fikrincə, bədnəzərlik cismani deyil, nəfsi xəstəlik sayıldığından onun müalicəsi də yalnız duanın köməyi ilə ola bilər.

Təbii ki, bütün bunlar bizim inanclarımızdan irəli gəlir. İnanclara inanmasanız da, arabir üzərliyi başınıza fırlayıb odun üstünə atın. Onun tüstüsünün bədnəzəri qovub-qovmaması elmi sübuta yetməsə də, hər halda, başağrısını yox edir. Çünki yanan üzərliyin qoxusu beyin damarlarını genişləndirir, qan dövranını yaxşılaşdırır.

Bəs gəlin görək insanları bədnəzərdən qoruyan bu bitkinin başqa hansı faydaları var?

İlk olaraq onu qeyd edək ki, üzərliyin toxumlarından xalq təbabətində geniş istifadə olunur. Bu bitkinin əsas faydalarından biri sinir sisteminə müsbət təsir göstərməsidir. O, əsəbləri sakitləşdirərək zehni və fiziki gərginliyi aradan götürür, sağlam və dərin yuxunu təmin edir. Hətta üzərlikdən hazırlanmış dəmləmə və cövhərlərin oynaq ağrılarına da yaxşı təsir göstərdiyini iddia edənlər var. Orta əsr alimləri üzərliklə kəskin əsəb xəstəliklərini, epilepsiyanı, iflici, zəifgörməni müalicə edirdilər.

Üzərliyin dəmləməsi soyuqdəymə xəstəlikləri, qarqara şəklində damaqların möhkəmləndirilməsi üçün də istifadə olunur. Xalq təbabətində üzərliyin dəmləməsinin mərkəzi sinir sistemi xəstəlikləri zamanı faydalı olduğu deyilir.

Sonda onu da qeyd edək ki, istər üzərlik olsun, istərsə də xalq təbabətində adıçəkilən hər hansısa bir vasitə, mütləq həkim məsləhəti ilə istifadə edilməlidir.

✍ **Fatma BABAYEVA**

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: **Səbuhi Həsənov**

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 136